# DÜŞÜNDÜRÜCÜ SUAL

**Öncə kitabın adından başlamaq istəyirəm. Həyat yolundan az-çox xəbərdar olduğum Eminin cəbhə bölgəsində tağım komandiri kimi xidmət etməsinə istinad edərək elə bu sualın hardan qaynaqlandığını təxmin edirəm. Ağlıma gələn ilk variant da təbii ki, sözün görünən tərəfidi. Yəni döyüş meydanında, səngərdə salamat qalan varmı?! Amma sual elə bu yozumla bitmir. Sözün alt qatına enəndə onda daha gerçək bir mənzərə göz önündə canlanır. Və bir oxucu olaraq mən anlayıram ki, şair bilmək istəyir ki, o səngərdə oturanları, döyüşənləri düşünmək, xatırlamaq, dəyər vermək, onların haqqını öz haqqı kimi qəbul etmək iqtidarında olanlar varmı? Təbii ki, bunlar varsa, demək şəhidlər də sağdı, elə səngərdə dünən də, bu gün də dayananlar da. Onlar sağdısa, deməli, itirilmiş əllər hər təmasda sıxılır. Və şairin də yazdığı bu misralar ürəyi ağrıtdığı kimi, duyğuları da, düşüncələri də ayaqda saxlayır:**

**Görüşəndə**
**sevgilisinin əlində**
**gözü axtarırdı**
**ona veriləcək gülləri.**
**İndi**
**kitabları arasında qurutduğu**
**Gül ləçəklərində axtarır**
**Sevgilisinin cəbhədə itirdiyi əlləri.**

Bəli, bu mənzərəni mən şeiri oxuya-oxuya bir neçə dəfə gözümün önündə canlandırdım.

Özü də təkcə oxuduğum şeirə görə yox, həm də müharibənin canlı şahidi və iştirakçısı kimi dəfələrlə qarşılaşdığım belə mənzərələrin içimdən gəlib keçən sızıltısını yenidən gördüyüm, yaşadığım üçün... Həmin anda Emin Piriyə bilmədim "sağ ol" deyim, yoxsa sadəcə susum. Zənnimcə, hər iki halda şair təşəkkürü də, həmin təşəkkürü ifadə edəcək lal sükutu da haqq etmiş olur. Və...

Mənə aftoqrafla bağışlanmış "Sağ qalan varmı?!" kitabını demək olar ki, bir aya yaxındır ki, hər gün şeir-şeir oxuyuram. Yəni oxuduğum bir şeirdən ikincisinə keçməyə tələsmirəm. Axı atəşkəsdi, özü də Emin Pirinin dediyi Atəşkəs.

**İyirmi illik**
**köhnəlmiş sözlərlə**
**başladı**
**televiziya**
**xəbər başlıqları:**
**atəşkəs pozulub...**
**düşmən susduruldu.**




**mərmilərə**
**atılan**
**Ana fəryadıyla.**

Atəşkəsin mənzərəsi sözlə deyil, sanki fırçayla çəkilib. Və biz bütün "Xəbərlər" proqramında bu şəkli tamaşaçı olaraq izləyirik. Və sonra da elə bil kimsə qulağımıza pıçıldayır:

- Diqqətli ol!

Məncə bu çağırış da elə-belə deyil. Bunun da arxasında Emin Pirinin tapıb ortaya çıxardığı bir diqqətsizlik var. Həmin diqqətsizliyi Emin biz oxuculara səmimi etiraf edir. Və yazır ki:

**Bir az sərxoşluqdan,**
**bir az da söhbətin şirinliyindən**
**qırıldı şərab badəsi**
**yıxılıb əlimdən.**
**Baxıb**
**köks ötürdü**
**xidmətçi xanım:**
**"cənab leytenant,**
**bu da qadın ürəyi deyil ki,**
**diqqətsizlikdən qırasız!".**

Düşünürəm ki, bizi diqqətli olmağa çağıran cənab leytenant əslində özü də çox diqqətlidir və heç nəyi də gözündən yayındırmır. Hətta xidmətçi qadının daşı hara atdığını da gözəl bilir. Ona görə də onun "Qız qalası" şeirini də mən həmin notlar üzərində oxuyub başa düşdüm ki:

**əsrlərin daş yaddaşında**
**süzər qolları**
**dövrəsindəki qızlarla**
**yallı getmək istəyər -**
**qollarını açan olsa.**
**Bəlkə də qoşulub gedər**
**götürüb qaçan olsa.**

Yəqin ki, bu istəyin nəyə işarə olduğunu birbaşa da olmasa dolayısıyla fəhm etmək mümkündür. Elə mən də bax bu istəyin işığında, yəni "Tanrı səni qorusun, Allah" fikriylə razılaşıram. Və üstəlik həm də "Dua" da edirəm Emin Piri kimi:

**Uşaqlıqdan**
**Tanrı türkü qorusun**
**dedilər qulağımıza.**
**Böyüyüb gördüm:**
**Yox!..**
**Tanrı türkü qorumaqdan çəkinir,**
**Türk qoruyur Tanrını!**
**Ən yaxşısı:**
**Tanrı türkü qorusun,**
**Türk Tanrını!**

Bu yerdə "Amin" demək daxili bir zərurətə çevrilir. Yəqin ki, bu yazını oxuyanda, bu nöqtəyə gəlib çatanda sizin də içinizdən "Amin" istəyi gəlib keçdi.

**Mən Emin Pirinin "Sağ qalan varmı?!" kitabını oxuduqca bir məqamı xüsusilə (təbii ki, özüm üçün - Ə.M.) müəyyənləşdirdim. Gördüm ki, Emin nədən yazır yazsın, hansı mövzunu qabardır qabartsın, onun fərqinə varmır. Sadəcə olaraq, həmin mövzuları səmimi pıçıltıya, isti bir söhbətə çevirir. Oxucu şeirlərlə bahəm, həm də müəlliflə, yəni Eminlə həmsöhbət olur. Bu qarşılıqlı anlaşma, bu təmas şeiri ətə-qana doldurur, onu dipdiri edir. Mən də gənc dostumu bu uğurlu kitaba görə təbrik edir və demək istəyirəm ki, Emin Piri, həlɘki sağ qalanlar var və onlar hər şeyi görür, duyur, düşünürlər. Elə sənin yazdıqlarını da, özünü də!..**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2020.- 28 yanvar. S. 6.